# Füzulidən daha bir əsər



*VAQİF YUSİFLİ*

**Ulu türk dünyası, möhtəşəm Şərq aləmi çox Məhəmmədlər tanıyır, ancaq iki Məhəmməd-iki fövqəlinsan Türk və Şərq düynyası üçün əvəzolunmazdır. Onlardan birincisi dinimizimn, Tanrıya məhəbbətimizin rəsulu-ulu peyğəmbərimiz Məhəmməddir (ə). İkincisi-sözümüzün, mənəvi düynyamızın, türkçülüyümüzün rəsulu Mövlana Məhəmməd Füzulidir. XX əsrin ustad şairlərindən birinin-Şəhriyarın klamıyla desək: "Füzuli poeziyası fars, türk və ərəb dillərində olan bir Qurandır".**

Füzulini sevirik! Türk türkü, müçəlman müsəlmanı. İnsan insanı sevən kimi Füzuli onu dərk etdiyimiz qədər bizimdir. Eyni zamanda, Füzuli bizim idrakımızın, adi insan şüurunun dərk edə bilməyəcəyi qədər də bizimkidir---

Füzuli haqqında Azərbaycan və ümumən dünya ədəbiyyatşünaslığında çox söz deyilib, amma gəlin etiraf edək ki, sahilləri və dibi görünməyən, yeri-göyü əks etdirən mühit dənizindən hər bir tədqiqatçı olsa-olsa, bir-iki damla toplaya bilib. Firidun bəy Köçərli də, Mir Cəlal da, Həmid Araslı da, Mirzağa Quluzadə də, Əkrəm Cəfər də, Fuad Qasımzadə də, Sabir Əliyev də, Samət Əlizadə də, Aybəniz Əliyeva-Kəngərli də Filologiya elmləri namizədi Aynurə Mahmudova da bir füzulişünas kimi özünü təsdiq etməkdədir.Nizami adına Ədəbiyyat İnstitutu Füzülişünaslıq sektorunun "Füzuli kitabxanası" seriyasıedan nəşr etdiyi "Füzuli ədəbi məktəbi (XVI-XVIII əsrlər)" monoqrafiyasının müəllifi də Aynurə Mahmudovadır.

Onun monoqrafiyası füzulişünaslıqda indiyə qədər az-çox öyrənilsə də, problemə çoxşaxəli baxış nöqteyi-nəzərindən dolğun nəzərə çarpır.Belə ki, Aynurə xanım Füzuli ədəbi məktəb anlayışına sistemli elmi şəkildə-ədəbiyyat nəzəriyyəsinin mövcud qənaətləri işığında yanaşır, deyilən fikirləri ümumiləşdirir (razılaşmadığı məqamlar da var), bu problemin digər ədəbi-nəzəri problemlərlə ilişgili olduğunu nəzərə çarpdırır, Füzuli irsinin ədəbi məktəb statusu qazanmasında dövr, mühit, dil, coğrafi mövqe və s. ən vacib məsələlərin də böyük rol oynadığını nəzərdən keçirir, Azərbaycan ədəbiyyatında Füzuli ədəbi məktəbinin hüdudlarını müəyyənləşdirir.Əlbəttə, bunlar bir-birilə sıx əlaqədə olan, biri digərini şərtləndirən məsələlərdir.

İlk növbədə, müəllif problemin kökündən, əlifbasından baqşlayır. Ənənə nədlir? Ənənə təbii ki, geniş anlayışdır, ədəbiyyatın özül və bünövrəsini, məna və mahiyyətini, inkişaf yollarını, başlıca tendensiyalarını və istiqamətlərini özündə əks etdirir. Həm də ənənə ən uzunömürlü bir aqlayışdır, ədəbiyyat tarixinin hər yeni mərhələsində öz başlıca xüsusiyyətlərini qoruyub saxlamağa çalışan mənəvi sərvət göstəricisidir. Lakin ənənəni də dəyişməz və donmuş halda təsəvvür etmək yanlışdır. Çünki o, daxilən, məzmunca yeni xüsusiyyətlər kəsb edir, bədii forma baxımından da zənginləşir.Görkəmli tənqidəçi-ədəbiyyatşünas, professor Əkbər Ağayevin fikrincə, ənənə anlayışı dar bir mənanı əhatə eləmir, cəmiyyət və insan tarixinin müəyyən səciyyəsini əks etdirən mədəniyyət anlayışı ilə daha çox bağlıdır. Mədəniyyətin inkişaf səviyyəsi müəyyən ənənə yaradır və bu ənənə özü inkişaf edib mədəniyyət tarixini zənginləşdirir. Aynurə xanım ədəbi məktəb an6layışına da məhz bu prinsiplə yanaşır, dünya ədəbiyyatında, həmçinin Yaxın və Orta Şərq ədəbiyyatında ədəbi məktəblərin fərqli prinsiplərini izah edir.Məsələn, yazır ki, "Bayron ədəbi məktəbinin varlığından danışmaq bir qədər çətin olsa da, onun Fransada Alfred de Vinyu, Viktor Hüqo, Alfred de Müsse, Almaniyada gənc Heyne, Herveq və b. davamçıları olmuşdur. Bayron ədəbi məktəbi Rusiyada olduğu qədər heç bir ölkədə bu dərəcədə populyar olmayıb. A.Blok, A.Rotçev, xüsusilə də Lermontov yaradıcılığı Bayron təsirindən kənarda qalmayıb".O, rus ədəbiyyatşünası V.İ.Kuleşovun dəqiq bir fikrini də xatırfladır: "Məktəb" termini tətbiq olunan zaman, hər hansı bədii prinsip ətrafında birliyi, bir istiqamət, yaxud cərəyan daxilində yazıçıların xüsusi yaradıcılıq yaxınlığı nəzərdə tutulur".Azərbaycan və ümumən Şərq ədəbiyyatında nüfuzlu ədəbi məktəb sahibləri Nizami, Nəvai və Füzuli olmuşdur.Füzuli irsinin ədəbi məktəb statusunu onun müasirləri olan Lətifi və Əhdi Bağdadidən tutmuş bu əsrə qədər bütün yazarlar-alimlər təsdiq və etiraf etmişlər. Müəllif Firidun bəy Köçərlinin bir fikrini xatırladır müəllif: "Füzuli türklər ədəbiyyatında "Ustadi-şüəra" ləqəbini alıbdır və bu zati-şərif məzkur səva Azərbaycan vilayətində "Ustadüyl-məkatib" ismilə dəxi şöhrətlənişdir".Əlbəttə, Füzuli ədəbi məktəbinin yaranmasıfnda öncə qeyd etdiyimiz kimi, dövr, mühit, dil, coğrafi mövqe və b. amillərin də böyük rolu olmuşdur və müəllif bu məsələni izah edərkən ilk növbədə, XVI əsrin Bağdad dünyasına üz tutur. "Dünyanın yarısının paytaxtı" (ifadə L.Qumilyova aiddmir) Bağdad müxtəlif dillərin və mədəniyyətlərin qovuşması ilə diqqəti cəlb edirdi, Bağdadın elm və mədəniyyət mərkəzi olması, buradakı ədəbi mühit Füzuli kimi sənətkarın tanınması üçün zəmin yaradırdı. "XVI əsr türk xalqları ədəbiyyatı tarixində Füzuli dövrüdür desək yanılmarıq". Təbii ki, Füzuli ədəbi məktəbinin yaranmasının ilkin şərti dahi şairin öz istedadı ilə bağlıdır.O, Azərbaycan dilində -Azərbaycandan çox-çox uzaqlarda əsl sənət möcüzələri yaratdı, "düşvarı asan eylədi".Mənim müəllimim Samət Əlizadə "Şah beytlər" kitabında yazır ki: "Füzuli misra-misra, beyt-beyt böyükdür. Onun beytlərində qəfil bir şimşəyin parıltısı, əlçatmaz zirvələrin qüdsiyyəti var. Onun beytiləri xəyyamanə rübailər kimi sənətdə həqiqi gözəlliyin, məna dolğunluğunun məhəki sayıla bilər, hər beytin öz musiqi dili,-həmcins səslərdən, gözlənilməz qafiyələrdən bəstələnmiş melodiyası, özünəməxsus obrazları, aydın fikir istiqaməti və aforistik məzmunuü vardır.Bəzən hər şeir müstəqil və orijinal fikirlər söyləyən iki misralıq kiçik şeirlərin, rəngarəng çaları olan obrazların hörgüsünə, çələnginə bənzəyir. Hər şeirin zahiri və batini bir-birindən ötkün və gözəldir,-heyrrətamiz cəhət də budur!".

Müəllif Füzuli ənənəsinin təsir yollarının konkret tarixi şəraitdə müxtəlif xüsusiyyətlər kəsb etməsini kompleks şəkildə belə ümumiləşdirir: Füzuli ənənəsinin təşəkkülü və stabilləşməsi dövrü (XVI-XVIII əsrlər(, Füzuli ənənəsinin tipikləşməsi və stereotialəşməsi dövrü (XIX əsr), Fü-



zuli ənənəsinin mifikləşməsi dövrü (XX əsr). Və beləliklə, müəllif XVI əsrin ikinci yarısında yaşayan Fəzli (Füzulinin oblu), Ruhi. Əhdi, Şəmsi, Rindi, Zehni, Məhəmməd Əmani,həmçinin sonrakı əsrlərdə Seyid Əzim Şirvani, Nəbati, Natəvan, XX əsrdə M.Ə.Sabir, Ə.Vahid, eləcə də bir sıra türk şairləri Füzuli ənənəsini davam etdirirlər. XX əsrdə Füzuli ənənəsinə münasibətdə yeni bir mərhələ başlayır. "Füzuli tilsimini" qüdrətlə kənara atan M.Ə.Sabir, öz növbəsində yeni bir "tilsim" yaratmış oldu".

Aynurə xanım monorrafiyada daha çox XVI-XVIII əsrlərdə -hansı ki, bu ədəbi məktəb öz yüksəliş dövrünü keçirirdi-yaşayıb-yaradan şairlərin yaradıcılığına müraciət edir.Təbii ki, bu şairlərin heç biri poeziyada Füzuli səviyyəsinə yüksələ bilmədilər,dahilər yolu açırlar, bu yolu tutub gedənlər istedadlı olsalar da, "ustadi-əzəmin"cazibəsindən xilas ola bilməzlər. Ancaq onların əksəriyyəti yaradıcılıqda özünəməxsus olmağa can atırlar. Bənzəliklər olur, "formal cəhətdən Füzuli mətnləri ilə yaxınlıq Füzuli ədəbi məktəbinin bütün nümayəndələrinin yaradıcılığı arasında mövcuuddur". Monoqrafiyada ən maraqlı hissə "Füzuli ədəbi məktəbi nümayəndələrinin lirik yaradıcılığında Füzuli təsiri"dir.Bu "tilsim"in əsiri olan şairləri bircə-bircə təqdim edir. Müəllifin sitat cətirdiyi A.Musabəyli yazır ki, XVI əsr Bağdad şairi "Ruhinin elə əsərləri var ki, oxuduqda yalnız və yalnız Füzuli anılır, Füzuli şeiri, şeiriyyəti xatırlanır Ruhi Bağdadi qədər bütün yaradıcılığı ilə Füzuliyə yaxın ikuinci bir sənətkara təsadüf etməksə çətin ki, mümkün ola"!.Yaxud, XVII əsr şairi Məhəmməd Əmani yaradıcılığında (həm formal əlamətlərdə, həm də ideya-məzmun xüsusiyyətlərində) Füzuli ilə yaxınlıq daha çox diqqəti cəlb edir.

Füzulidə:

**Qıl səba, könlüm pərişan olduğun cananə ərz,**
**Surəti-halın bu viran mülkünn et sultanə ərz.**

Əmanidə:

**Ey səba, halımı qıl yaıma ərz,**
**Dilimin dərdini dildarıma ərz.**

Füzuli qəzəllərinin "tilsim"indən qurtarmaq çətin idi. Ancaq Füzulidən təsirlənən şairlər çalışırdılar ki "Füzuli kimi ruhi-emosional vəziyyətlərin təsvirində lirik qəhrəmanın daxili aləminin" paradokslarını nümayiş etdirsinlər".

Füzuli ədəbi məktəbinin ən irəlici nümayəndələri sırasında iki şairin-Qövsi Təbrizinin və Saib Təbrizinin yaradıcıdığı-onların qəzəlləri ruhca Füzuliyə daha yaxındır. Onların hətta Füzuliyə nəzirələri də orijinallığı ilə seçilir. Qövsi Təbrizi bir çox qəzəllərinin məqtə beytində Füzulidən misallar gətirir:

**Bu həman rəna qəzəldir kim, Füzuli söyləmiş:**
**"Doğru derlər, hər zəman bir aşiqin dövranıdır"**

Saib Təbrizi poeziyasında da Füzuli təsiri və ruhu yaşayır.

Amma "vahid ənənə daxilində Füzuli ilə Saib arasındakı ədəbi əlaqə ənənədən bəhrələnmədən fərqli şəkildədir. Saib yaradıcılığında konkuret olaraq Füzuli təsirini görmək mümkün olduğu halda, bu təsiri ümumi ənənədən bəhrələnmə kimi göstərmək yanlış olardı".

Monoqrafiyada Füzuli ədəbi məktəbinə aid edilən Sadiq bəy Əfşarın, Rəhmətinin, Zəfərin, Mirzə Salehin də şeirlərinə müraciət olunur və biz bir daha əmin oluruq ki, Füzuli "tilsimi" doğrudan da o üç əsrdə yaşayan şairləri necə də ofsunlayıbmış. Və nəhayət. Molla Vəli Vidadi. Azərbaycan poeziyasında ən kədərli şair bəlkə də Vidadidir və onun Füzuli qəmini XVIII əsrdə özünəməxsus səsləndirməyini hiss etməmək mükün deyil.

Füzuli və Vaqif müqayisəsinə gəldikdə isə poeziyada bir-birindən fərql pozada nəzərə çarpsalar da, amma şeirlərindəki səmimiyyət, sadəlik, obrazlılıq hər ikisini bir ortama gətirir.

Hərçənd ki, biri sırf romantikdir, dünya ədəbiyyatında aşiqliyin, eşq konsçepsiyasının müməsslidir, ikincisi isə sırf realistdir, gözəlliyi və gözəlləri vəsf etməkdən yorulmur.

**Aynurə Mahmudovanın bu monoqrafiyası füzulişünaslıqda maraqlı bir hadisədir və mən ona öz tədqiqatını daha sonrakı əsrlərə də şamil edəcəyinə inanıram. Çünki Füzuli ədəbi məktəbinin Seyid Əzim Şirvani və Əliağa Vahid kimi qüdrətli nümayəndələri və onlardan sonra gələn qəzəlçilər də bu problemin elmi həllindən kənarda qalmamalıdır...**